ədalət.- 2023.- 4 mart.- S.8.



# BÖYÜK BƏSTƏKAR ANILDI

**Xalq aristi, böyük bəstəkar Oqtay Kazıminin 90 yaşı tamam olub. Düzdü, Oqtay Kazımi bu yaşı özü qeyd eləyə bilmədi. Çünki o, Allahın dərgahına qovuşub, amma onu sevənlər, çox istəyənlər bəstəkarı yada saldılar və xatırladılar. Bu münasibətlə Mədəniyyət Nazirliyi və Rəşid Behbudov adına Mahnı Teatrının təşkilatçılığı ilə bu günlərdə böyük tədbir keçirildi. Tədbirdə ön sözlə çıxış edən sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Jalə Qulamova unudulmaz bəstəkarın həyat və yaradıcılığı barəsində ətraflı danışdı. O, qeyd etdi ki, Oqtay Kazımi kimi böyük bəstəkarlar həmişə yaşayacaq. Çünki onların ölməz bəstələri var. O bəstələr yüz illər keçsə də səsləndikcə, Oqtay müəllimi milyonların yaddaşında yenidən yada salacaq.**



Tədbirdə böyük bəstəkarın "Qaytar eşqimi", "Mehriban insanlar", "Dalğalar", "Məhəbbət", "Əlvida", "İnanmıram", "Bəs nə deyim", "Taleyim mənim", "Ey həyat, sən nə qəribəsən", "Aman yar", "Qaranquş" mahnıları səslənib. Həmin mahnıları Fəxri Kazım-Nicat, Aynur İsgəndərli, İlhamə Qasımova, Aytən Məhərrəmova, Ayşə Mehdiyeva, Mətin Rzazadə və digərləri səsləndiriblər. Bununla yanaşı, pianoda Xalq artisti Salman Qənbərovun müşayəti ilə "Bulaq suyu, dağ havası", "Bir yerdə olaq", "Ayrılıq olmayaydı", "Nə gəlməz oldun", "Cavanlığım", "Hər Vətən deyəndə", "Tələsin insanlar" mahnıları da səsləndirildi. Həmin mahnıları isə Gülyanaq Məmmədova, Gülyaz Məmmədova, Aynar İsgəndərli, Heydər Anatolu, Taleh Yəhyayev ifa ediblər.

Bu tədbir Oqtay Kazıminin Azərbacyan xalqına və müsiqisinə necə bağlı olduğunu bir daha təsdiq etdi. Zaman göstərdi ki, Azərbaycan xalqı olduqca, Oqtay Kazıminin özü də, musiqiləri də həmişə yaşayacaq.

**Tədbirdə Oqtay Kazımilnin oğlu Elçin Kazimi atasının adını uca tuduğuna görə, tədbir təşkilatçılarına - Mədəniyyət Nazirliyinə və Rəşid Behbudov adına Mahnı Teatrının rəhbərliyinə öz minnətdarlığını bildirdi.**

**Faiq QİSMƏTOĞLU**